**AZƏRBAYCAN RESPUBLİKASI**
**İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

# QƏRAR

**№ 33**

**Bakı şəhəri** **29 dekabr 2023-cü il**

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 23.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, həmin Qanunun 23.3.5.1-ci, 23.3.5.2-ci və 23.3.5.3-cü (maliyyə sanksiyasına münasibətdə) maddələrində qeyd olunan halların mövcud olmaması barədə arayış forması"nın təsdiq edilməsi haqqında

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 3-cü hissəsinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası

**Q Ə R A R A A L I R:**

1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 23.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, həmin Qanunun 23.3.5.1-ci, 23.3.5.2-ci və 23.3.5.3-cü (maliyyə sanksiyasına münasibətdə) maddələrində qeyd olunan halların mövcud olmaması barədə arayış forması" təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.
3. İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Leyla Zamanovaya tapşırılsın ki, bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən (Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 5.5-ci bəndi nəzərə alınmaqla) sonra 72 saat müddətində rəsmi dövri mətbu nəşrdə dərc edilməsi və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) informasiya ehtiyatında, eləcə də qüvvəyə mindiyi gündən İqtisadiyyat Nazirliyinin internet informasiya ehtiyatında yerləşdirilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etsin.
4. Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin müdir müavini Elnur Əliyevə tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.
5. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya iclasının protokolu.

**Sədr,**
**İqtisadiyyat naziri** **Mikayıl Cabbarov**

Azərbaycan Respublikası İqtisadiyyat
Nazirliyinin Kollegiyasının 2023-cü il 29
dekabr tarixli 33 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 23.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, həmin Qanunun 23.3.5.1-ci, 23.3.5.2-ci və 23.3.5.3-cü (maliyyə sanksiyasına münasibətdə) maddələrində qeyd olunan halların mövcud olmaması barədə**

**A R A Y I Ş**

Vergi ödəyicisinin adı:
VÖEN-i:
Sahibkarlıq subyektlərinin bölgüsü (mikro, kiçik, orta, iri):

**Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərlə bağlı mövcud vəziyyət**
*(Qanunun 23.3.5.1-ci maddəsinə əsasən)*

| | |
|---|---|
| Vergilər üzrə: | *borc var (___ manat) (və ya borc yoxdur)* |
| Məcburi dövlət sosial sığorta haqqı üzrə: | *borc var (___ manat) (və ya borc yoxdur)* |
| İşsizlikdən sığorta haqqı üzrə: | *borc var (___ manat) (və ya borc yoxdur)* |
| İcbari tibbi sığorta haqqı üzrə: | *borc var (___ manat) (və ya borc yoxdur)* |

**Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərarın olub-olmaması ilə bağlı mövcud vəziyyət**
*(Qanunun 23.3.5.2-ci maddəsinə əsasən)*

Riskli vergi ödəyicisi olmasına dair barəsində qüvvədə olan qərar: *var (və ya yoxdur)*

**Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə maliyyə sanksiyasının tətbiq edilməsi halının olub – olmaması ilə bağlı mövcud vəziyyət**
*(Qanunun 23.3.5.3-cü maddəsinə əsasən)*

maliyyə sanksiyasının tətbiq edilməsi halı: *var (və ya yoxdur)*

________________________________________ rəisi (və ya onu əvəz edən səlahiyyətli şəxs)

______________________________________________________________________________

(vergi orqanının adı) (imza) (soyadı, adı və atasının adı)

M.Y.

Arayışın tarixi “___” “___________” 20__-__ il

Arayışın nömrəsi № ________________